***ARXEOLOGİYA VƏ ETNOQRAFİYA***

https://doi.org/10.59849/3006-1342.2026.2.86
UOT 94(479.24)

*Samirə Əliağa qızı Qasımova*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Etnoqrafiya şöbəsinin müdiri*
*ADAU, İctimai fənlər kafedrası*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: samira.musayeva132@gmail.ru*
*ORCID ID: 0000-0002-8736-3909*

# GƏNCƏ BƏDİİ TİKMƏ SƏNƏTİ AZƏRBAYCAN DEKORATİV TƏTBİQİ SƏNƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

*Azərbaycanın qədim sənətkarlıq və mədəniyyət mərkəzlərindən biri olan Gəncə əsrlər boyu zəngin dekorativ-tətbiqi sənət ənənələri ilə seçilmişdir. Bu qədim şəhərdə inkişaf etmiş xalq sənətləri arasında bədii tikmələr xüsusi yer tutmuş, öz zərifliyi, incəliyi və yüksək estetik xüsusiyyətləri ilə fərqlənmişdir. Gəncə tikmələri yalnız məişət əşyalarının bəzədilməsi vasitəsi olmayıb, eyni zamanda şəhər əhalisinin milli dünyagörüşünü, bədii zövqünü və etnik-mədəni xüsusiyyətlərini özündə əks etdirən mühüm sənət nümunələri kimi formalaşmışdır. Şəhərdə qız-qadınlar zərif işləməli müxtəlif növ tikmə nümunələri yaratmış, məişət əşyalarından pərdə, örtük, süfrə, mütəkkə, at yəhəri və s. üzərində salınmış bəzəkləri el sənətinin ən çox yayılmış növü sayılan tikmə üsulu ilə icra etmişdilər. Əsrlər boyu nəsildən-nəsilə ötürülərək qorunub saxlanılmış bu sənət növü hazırda da sənətkarlar tərəfindən qədim tikmə ənənələrini yaşatmaqda, milli dekorativ-tətbiqi sənətin inkişafına öz töhfələrini verməkdədirlər.*

*Açar sözlər:* Gəncə, Azərbaycan, dekorativ tətbiqi sənəti, bədii tikmə, naxışlar, milli-mədəni dəyərlər

## *Giriş*

Dekorativ tətbiqi sənətinin maraqlı sahələrindən biri olan tikmələr, xalqımızın yaşayış və həyatının bütün ənənələri ilə ayrılmaz surətdə bağlı olaraq özündə canlı tarixi yaşadır. Ana-bacılarımız ta qədimdən öz geyimlərinə, eləcə də həyat və məişətdə istifadə etdiyi bir çox əşyalara gözəllik verməyə çalışmışdır. Hər qız-qadının tikiş bilməsi, naxış vurmaq qabiliyyətinə malik olması vacib idi və buna əməl olunurdu. Hətta bir vaxtlar qızlar cehiz sandıqlarına qoymaq üçün çeşidli tikmələr tikər, balıncların, dəsmalların üzərinə zərif naxışlar salardılar. Tikmələrdə yerli ipək və yun saplardan və çaxma piləklərdən istifadə olunurdu. Tikmənin müxtəlif növləri, istər peşəkar, istərsə də kustar səviyyədə (sənaye əhəmiyyətli kustar tikmələrlə isə yalnız kişilər məşğul olarmış) Azərbaycanın bir çox bölgələrində inkişaf etmişdi. Bu günümüzədək gəlib çıxan qədim və orta əsrlərə aid məişət nümunələri bir daha sübut edir ki, dekorativ-tətbiqi incəsənətimiz uzun bir inkişaf yolu keçmişdir.

Qədim elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən olan Gəncədə də bədii tikmə sənəti əsrlər boyu geniş yayılmış və tikmə sənətini yaşadan peşəkarlar olmuşdur. Şəhərin qız-qadınları Azərbaycan məişətində geniş yayılmış güləbətin, pilək, çaxma pilək, təkəlduz, qullabduz, zərənduz, quşgözü, hamar, doldurma, örtmə, cinağı, cülmə, sırıma, tozmuncuq, məlilə, nağda kimi tikmə növlərinin bir çoxundan məharətlə istifadə edərək, müxtəlif növ tikmə nümunələri yaratmış, məişət əşyalarından pərdə, örtük, süfrə, mütəkkə, at yəhəri və s. üzərində salınmış bəzəkləri el sənətinin ən çox yayılmış növü sayılan tikmə üsulu ilə icra

etmişdilər. Parça və zərif meşindən hazırlanmış müxtəlif əşyalar üzərinə salınan bu tikmələr o qədər incə və rəngarəngdir ki, günümüzədək qalanları hələ də öz estetik mahiyyətini itirməmişdir.

*Əsas hissə.* Gəncə şəhərinin dekorativ-tətbiqi sənətində tikmə nümunələri hələ qədim dövrlərdən etibarən xüsusi yer tutur. Şəhər ərazisində arxeoloji tədqiqatlar zamanı orta əsrlərin ilk dövrlərinə aid tikmə nümunələrinə rast gəlinmişdir. Tarixi Gəncə ərazisinin bir hissəsi olan Şəhərburnunda - indiki Mingəçevir ərazisində V-VII əsrlərə aid katakomba qəbirlərindən üstündə tikmə izləri olan ipək parçaları buna misaldır. Tikmə qalıqları qondarma üsulu ilə dəri parça üzərinə əlavə edilməklə ipək və güləbətin sapla icra olunmuşdur. Dərinin üzərini zəncirvari və sünbülvari formaya malik naxış silsiləsi bəzəyir. Belə naxış elementinə qədim dövrə aid bədii məmulatlar üzərində tez-tez rast gəlinir. Ehtimal olunur ki, bu izlər güləbətin tikmələrin qalığıdır. Onu qeyd edək ki, böyük tarixi və bədii əhəmiyyətə malik bu qədim tikmə qalıqları Azərbaycan ərazisindən tapılan ən qədim nümunələrdir [1].

Xalq tətbiqi sənətinin çox sevilən və geniş yayılan naxışlarından biri də qoşa quş təsvirləridir. Bu cür naxış Mingəçevirdə tapılan və qeyd etdiyimiz dövrə aid olan orta əsr məbədinin bir hissəsində vardır. Gözəl naxışlar, müxtəlif quş və heyvan təsvirləri, gül, çiçək, yarpaq, böyük məharətlə hazırlanmış müxtəlif təsvirlər hələ orta əsrlər dövründə Azərbaycan şəhərlərində istehsal olunan rəngli gil qabları bəzəyirdi [6, s. 5].

Oğuz tayfalarının qəhrəmanlıq, mərdlik və adət-ənənələrini tərənnüm edən VII əsrə aid "Kitabi Dədə Qorqud" dastanında tikmə sənətimiz haqqında, dolayı yolla olsa belə, məlumat verilir. Dastanın "Qam Börənin oğlı Bamsı Beyrək" boyunda Yalancuğun gətirdiyi köynəyi tanımaq üçün məhz Beyrəyin nişanlısı Banıçiçəyə müraciət olunur: "... Biz bunı tanımazız, adaqlusuna aparın, görsün. Ol yaxşı bilür. Zira ol diкübdir, yenə ol tanır" [ 8, s. 58].

Bundan başqa Azərbaycan tikmələri barədə məlumata IX-XI əsrlərdə yaşamış ərəb müəlliflərinin və klassik şairlərin – Nizami, Füzuli əsərlərində də rast gəlirik. Orta əsrlərdə Səlib yürüşlərinin başlaması, Şərqlə Qərb arasında ticarət əlaqələrinin inkişaf etməsi, Şərqdə işlənən tikmələrdəki naxış növlərindən, əl işlərindən və sənət nümunələrindən yaranmış gözəl əsərlərin Avropa ölkələrində tanınıb yayılmasına səbəb oldu.

Orta əsrlər dövründə Gəncə, o cümlədən Təbriz, Ərdəbil, Şamaxı, Naxçıvan və başqa şəhərlərdə olmuş əcnəbi səyyahlar Azərbaycan tikmələrinin yüksək texniki və bədii xüsusiyyətlərinə valeh olduqlarını öz gündəliklərində dəfələrlə qeyd etmişlər. XVI əsrdə Azərbaycanda olmuş ingilis səyyahları A.Cenginson, T.Olkok, C.Ren, R.Çini ipək, qızıl-gümüş saplarla bəzədilmiş nəhəng çadırlar haqqında, XVII əsrin fransız səyyahı Ş.Şarden Səfəvi hökmdarlarının Parisin Luvr qalereyasını xatırladan tikmə karxanalarının olması barədə məlumatları buna misaldır. XIX əsrin 50-ci illərində Qafqaza səfər etmiş fransız yazıçısı A.Düma Azərbaycan tikmələrinə valeh olduğunu qeyd edir: "Şəkidə mən iyirmi dörd manata bədii tikməli iki yəhər aldım. Belə yəhəri Fransada iki yüz franka da ala bilməzdim. Düzünü desəm, onu bizdə heç bir qiymətə tapmaq da olmaz...". Təsadüfi deyildir ki, qeyd olunan əsrlərə aid tikmə nümunələri Metropoloiten, Viktoriya və Albert, Lüvr, Ermitaj, Topqapı sarayı və s.kimi məşhur muzey və şəxsi kolleksiyaların qiymətli eksponatları sırasındadır [4, s. 41-43].

Qeyd edək ki, Gəncə əhalisinin məişətində təkəlduz, pilə, qurama, oturtma kimi tikmə növlərindən daha çox istifadə olunmuşdur [9, s. 18]. Dekorativ xüsusiyyətləri ilə fərqlənən və məişətdə istifadə edilən müəyyən əşyaların bir qisminin (geyim, xırda bəzək əşyaları və s.) bəzədilməsində istifadə olunan tikmə növlərindən olan güləbətin tikmə orta əsrlərdən Gəncədə yayılsada, XIX əsrdə daha da inkişaf etmiş, ana-bacılarımız peşəkar formada nəfis və göz oxşayan tikmə nümunələri yaratmışdılar. Əsasən ağır və bahalı parçalar üzərində salınan, qədim ənənəyə malik olan bu "aristokrat" tikmə növü Azərbaycanda demək olar ki,

varlı qadınların sevimli məşğuliyyəti olmuşdur [5, s. 101]. Güləbətinli tikmələrdə fabrikdə hazırlanmış qızılı və gümüşü saplar tətbiq edilirdi. Əyirmə və eşmə nəticəsində alınan qızılı və gümüş sapların özəyi ipək, iplik və kətan saplar olurdu. Qızıl və gümüş isə yalnız onların üst təbəqəsini örtürdü [3, s. 8].

Tədqiqatçılara görə, tikmə sənətində metal saplardan istifadə ənənəsi xalqın qədim mifoloji dünyagörüşü ilə bağlı olmuşdur. Türk xalqlarında, o cümlədən Azərbaycanda geyimlərin və ev interyerinin bəzədilməsində metal əşyalardan istifadə onun qoruyucu gücünə olan inamdan irəli gəlirdi. İnsanlar inanırdılar ki, metalın cingiltisi pis ruhları qovur. Metal bəzəklərdə qızıla daha çox üstünlük verilməsi həm qızılın dayanıqlığı, parlaqlığı, həm də onun sehr gücünə inamın daha çox olması ilə bağlı idi. Buna görə də qədim insanlar qoruyucu gücünə inandıqları qızıl bəzəkləri də geyimlərinə bənd edilirdi.

Qeyd edək ki, güləbətin sözünün mənşəyi etimologiya lüğətində "zərdən gülləri olan" mənasında verilir. Lakin güləbətinlə, əsasən, həndəsi naxışların salınması və mənşəyi etibarilə, sözü gedən tikmə sənətinin metal inancı ilə bağlı olması kimi amillər, eləcə də orta əsrlərə dair bir sıra türkdilli qaynaqlarda verilən məlumatlar bu istilahın ilkin adlanma olmadığını deməyə əsas verir. Belə ki, Mahmud Kaşğarinin əsərində çikin, "Kitabi-Dədə Qorqud" eposunda çigin (çikin quşlu cübbə don) güləbətin mənasında işlənir. Çikin (güləbətin) quş təsvirli donlar çox qiymətli geyim olmuş, onu yalnız yüksək rütbəli şəxslər geyinmişlər [8, s. 4].

Güləbətinlə tikmə sənətinin daha qədim tarixi vardır. Bu cür tikmələr üçün nisbətən qalın və davamlı parçalardan istifadə edilirdi. Ən yaxşı parça müxtəlif saya rəngli, əksərən qırmızı, tünd qırmızı, bənövşəyi, yaşıl rəngli məxmər, habelə başqa müxtəlif rəngli nazik mahud, zərxarda, tirmə, atlas və başqa növ parçalar hesab olunurdu. Güləbətinlə tikmələrdə fabrik hazırlanmış qızılı və gümüşü sap tətbiq olunurdu. Onlar yalnız rəngləri ilə deyil, hazırlanma üsulu ilə də fərqlənirdi. Əyirmə və eşmə nəticəsində alınan qızılı və gümüşü sapların özəyi ipək, iplik və kətan sap olurdu. Qızıl və gümüş isə onların yalnız üst təbəqəsini örtürdü.

Güləbətin tikmənin işlənmə üsuluna gəlincə isə hamar (zəminduzi) və qabarıq (məlihəduz) olmaqla iki cür olur. Hamar işləmə (zəminduzi) texnikası ilə məmulatı bəzəmək üçün düzbucaqlı çərçivəyə bənzər taxta kargah (dəzgah) və iynədən istifadə edirlər. Müvafiq parça kargaha tarım çəkildikdən sonra, onun üzərinə kağızdan kəsilmiş naxış motivləri (eskiz) qoyub əvvəlcə adi sapla, sonra isə zərli və ya gümüşü (güləbətin) saplarla paralel surətdə bənd edilirdi. Qabarıq işləmə (məlihəduz) texnikası örtmə tikiş üsulu ilə icra olunurdu. Burada saplar bir-birinin yanına paralel və çox sıx bəndlənir. Güləbətin tikmənin bu üsulu haşiyə bəzəyində daha geniş tətbiq edilir. Naxışların parça üzərində bir qədər qabarıq çıxması üçün qalın sap və qaytandan da istifadə edirlər.

Gəncədə yayılmış digər tikmə növlərindən biri də təkəlduz tikmədir. "Təkəlduz" sözü hərfi mənada "tək əllə düz" mənasını verir. Təkəlduz tikmə zamanı istifadə edilən iynəyə "qarmaq" deyilirdi. Bəzi yerlərdə ona "qullab" deyildiyi üçün bu növ tikmə "qullabduz" da adlanırdı. Təkəlduz tikmə ilə nazbalış üzü, örtüklər, mütəkkə üzü, süzəni və başqa örtüklər bəzədilirdi.

Avropa dillərində bu tikmə növünə "zəncirli naxış" deyirlər (fr. point de chainette, ing. chain stitch, alm. Kettenstich), çünki bu tikmə növünün əsasını qədim çağlardan gələn zəncirli tikiş təşkil edir. Təkəlduz ilmələr sapı xüsusi metal qarmağa ilişdirmə yolu ilə icra olunurdu [6, s. 84-94]. Təkəlduz üçün nəbatat aləmindən müxtəlif yarpaqlar, gilənar, qızılgül, alma çiçəyi, zanbaq, bənövşə, meynə yarpağı, əncir yarpağı; heyvanat aləmindən isə, ceyran, bülbül, qaranquş və digər motiv və elementlər səciyyəvidir.

Bədii görünüşü, məişət yönümlüyü və milli xarakteri ilə yanaşı təkəlduzun iqtisadi cəhətdən də sərfəli olması onun Gəncədə yayılmasına səbəb olmuşdu. Tarixi-etnoqrafik

məlumatlardan məlum olur ki, Gəncə və onun ətraf ərazilərində təkəlduzun "gəzmə" və "doldurma" növləri geniş yayılmışdı.

Təkəlduz öz dekorativliyi, zəngin naxışları, incəliyi, əlvanlığı, özünə məxsus kompozisiyası və yüksək texniki üslubuna görə təkrarolunmaz sənət hesab olunur. Yerliyi əsasən bir rəng (yekrəng) məxmər, qanovuz, darayı və s. ipək parçalardan ibarət olan təkəlduz tikmələrin təsvir vasitələri sırf ornamental səciyyəli olub, yerli floradan alınan müxtəlif bitki motivlərindən, quş təsvirlərindən ibarətdir ki, bu da əsərin emosional təsir qüvvəsini artırırdı.

Qeyd edək ki, XIX əsrdə Azərbaycan xalqının məişətində bilavasitə mühüm yer tutan müxtəlif naxışa və rəng koloritinə malik bir çox ornamental və sujetli tikmələr Gəncədə, o cümlədən Şamaxı, Bakı, Şəki, Şuşa, Naxçıvan və Təbriz kimi qədim sənətkarlıq mərkəzlərində istehsal olunurdu.

Təkəlduz və güləbətin kimi ənənəvi üslubla yanaşı, məişət əşyalarına, paltara bəzək vurulduqda müxtəlif metallardan gümüş, tune və s. hazırlanmış dairə, borucuq, romblardan geniş istifadə olunurdu. Bu tikmələrdə əsas üstünlük rəngbərəng yastı, parıltılı, ortası deşik metal dairələrə - pilələrə verildiyindən piləkli tikmə adlanırdı. Onlardan daha çox istifadə olunan şəhərlərdən biri də Gəncə şəhəri idi. Taxça üçün pərdələrdən və podnos örtüyündən tutmuş at çulunadək ən müxtəlif əşyalar pilələrlə bəzədilirdi [3, s. 353].

XIX əsrə aid Gəncədə hazırlanmış piləkli tikmə Azərbaycan Milli İncəsənət Muzeyinin bədii tikmələr kolleksiyasına daxil edilmiş və Azərbaycan mədəni irsinin qiymətli nümunələrindən biri kimi qorunur. Bu tikmə növü dekorativ-tətbiqi sənətimizin klassik örnəklərindən sayılır və ustalıqla işlənmiş detalları ilə səciyyələnir (şəkil 1).



*Şəkil 1. Pərdə (mahud parça). Piləkli tikmə. Gəncə, XIX əsr*
*Azərbaycan Milli İncəsənət Muzeyi*

Geyim və xırda məişət əşyalarının bəzədilməsində istifadə olunan muncuqlu tikmə növündən də Gəncə şəhərində istifadə olunurdu. Muncuqlu tikmədə məxmər, qanovuz və şal kimi parçalar işlədilirdi. Parçanın üzərinə naxış çəkilir, sonra isə muncuqlar (ən çox mirvari) düzülürdü. Muncuqlar iki üsulla, ya təkbətək, ya da düzüm halında sıra ilə parça üzərinə bənd edilirdi. Muncuqlu tikmələrdə ən geniş yayılan motivlər güllər, çiçəklər və yarpaqlar olmuşdur. Toz muncuqla tikilən ən incə məmulatlar Gəncə və Qazaxda geniş yayılmışdı.

Muncuqla tikmə növünə misal olaraq Azərbaycan Tarix Muzeyinin Etnoqrafiya fondunda saxlanılan materiallar içərisində XVIII əsrdə hazırlanmış Gəncə hökmdarı Cavad xana məxsus olan qəlyan çubuğunu göstərmək olar. Üzərində müxtəlif rəngli muncuqlarla həndəsi zolaqlar, buta təsvirləri işlənmişdir. Mərkəzində isə xanın mərhum oğlanlarının təsvirləri də salınmışdır. Fərqli rəngli muncuqlardan istifadə çubuğa xüsusi estetik görünüş bəxş etmişdir.

Taxça başı örtüklərdə, döşəkçələrdə isə əsasən bədii tikmənin ***qurama*** növündən istifadə olunurdu. Əsasən üçbucaq formalı həndəsi naxışla bəzədilmiş bu tikmələr Gəncəbasarda daha çox istifadə olunurdu.

Gəncədə, həmçinin Qazaxda, Naxçıvan, Abşeron və Qərbi Azərbaycanda "Qıvırçıq" və "İynə arxası" adı ilə tanınan bədii tikmə nümunələri də geniş yayılmışdır ki, onların hazırlanmasında rəngli ipək saplardan istifadə olunmuşdur. Bu saplar neylon və kətan qarışığından hazırlanan parçalar üzərinə işlənirdi. Əksər hallarda naxış rolunu oynayan müxtəlif formalı parçanın altına pambıq və yaxud yun qoymaqla onun daha da qabarıqlığına nail olunurdu ki, bu da ayrı-ayrı örtüyün və pərdənin tərtibatını daha da gözəlləşdirirdi.

Bundan başqa Gəncəbasarda geyimlərə, üz örtüyünə, pərdələrə, divar bəzəklərinə və s. naxışlar vurmaq üçün saya tikmə və doldurma tikmədən də istifadə olunmuşdur.

Sənətşünas alimlər qeyd edir ki, XIX-XX əsrin əvvəllərində tikmələr üçün əsasən qonovuz, darayi və məxməri kimi yerli istehsal parçalarından istifadə olunurdu. Məlumatlara görə, onlar Azərbaycanın müxtəlif şəhərlərində, əsasən Gəncədə, Şamaxıda, Basqalda, Şəkidə, Şuşada hazırlanırdı. Bundan əlavə yerli və xaricdən gətirilən qalın parçalardan - mahuddan və eləcə də müxtəlif rəngli məxmərdən istifadə olunurdu. Bəzən pambıq və kətan parçalar da işlədilirdi.

Təəssüf ki, XX əsrin əvvəllərində Azərbaycanda kapitalist münasibətlərinin inkişafı, sinfi təbəqələşmənin sürətlənməsi nəticəsində xalqın həyat tərzindəki ictimai-iqtisadi dəyişikliklərlə əlaqədar olaraq, meydana çıxan yeni tələblərin təsiri altında bir sıra xalq sənətkarlıq nümunələrinin bəzək motivlərinin məzmun və ifadə üslubu da dəyişir, bəzi sənət nümunələrinə olan meyl azalmağa başlamışdır. Bu dövrdə təsvir vasitələrinin (əbrişim-las, ipək, güləbətin saplar, mirvari, pilək və s.) qıtlığı Avropa və Rusiyadan külli miqdarda fabrik məhsullarının gətirilməsinə səbəb olmuşdu. Nəticədə avropasayağı əşyalar xalqın məişətində daha çox yer tutmuş və bunlar Azərbaycan milli tikmələrinin bir qisminin (güləbətin, toz muncuq və s.) aradan çıxmasına, bir qisminin də bədii-texniki strukturunun dəyişilməsinə səbəb olmuşdu [6, s. 84].

Lakin bütün bunlara baxmayaraq, vətənimizin bir çox bölgələrində olduğu kimi, Gəncədə də yaşayıb yaradan toxucu sənətkarlar əsrlər boyu bu qədim sənət növünü hər cür maneələrdən qoruyub saxlamağa çalışmış və bu sahədə bilik və bacarıqlarını nəsildən-nəsilə ötürməyi bacarmışlar. Düzdür, hazırda çox az ailələr tapılar ki, orada toxuculuq sənətinin və qədim tikmələrin növləri inkişaf etdirilsin. Bununla belə Gəncədə dekorativ tətbiqi sənətinin bizdən uzaqlaşmaqda olan müxtəlif növlərini yaşadan rəssamların, bədii tikmə ustalarının olması bizi sabaha ümidləndirir. Bu mənada bədii tikmə ustalarından Təranə Cəfərovanın, karton kağız üzərində muncuqla işləmə ustalarından Məhərrəmova Sevinc və Rzayeva Şəbnəmin adlarını çəkə bilərik. Onların fəaliyyəti göstərir ki, əsrlərlə formalaşmış bədii ənənələr hələ də yaşayır və müasir dövrdə yeni ifadə formaları qazanaraq inkişaf etməkdə davam edir.

*Nəticə*

Bütövlükdə tədqiqatlar göstərir ki, Gəncədə formalaşmış bədii tikmə sənəti Azərbaycan xalq tətbiqi sənətinin ən qiymətli sahələrindən biridir. Bu sənət növü xalqın milli-mədəni dəyərlərini, estetik dünyagörüşünü və qədim sənətkarlıq ənənələrini özündə yaşadır. Gəncə tikmələri həm tarixi, həm də bədii baxımdan Azərbaycan mədəni irsinin mühüm nümunələrindən hesab olunur.

ƏDƏBİYYAT

1. Abdulova G. Azərbaycan tikmələri. https://anl.az/down/meqale/az.xalcalari/2014/noyabr/427545.pdf
2. Azərbaycan tarixi. Yeddi clddə. III cild (XIII-XVIII əsrlər). Bakı: Elm, 2007, 592 s.
3. Азербайджанские вышивки. Москва: Изд: Искуство, 1971, 108 с.
4. Əfəndi R. Azərbaycan bədii sənətkarlığı dünya müzeylərində. Bakı: İşıq, 1980, 160 s.
5. Əliyeva G. Azərbaycanın bədii parça və tikmələri (XIX-XX əsrlər). Bakı: Elm, 1990, 186 s.
6. Əzizbəyova P.Ə. Azərbaycan tikmələri M.: İskusstvo, 1971, 110 s.
7. Güləbətin tikmə. Keçmiş məişətə səyahət. (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında). (Elmi red. t.ü.f.d., dos. G.Abdulova). Kataloq. Bakı, 2024, s. 4.
8. Kitabi-Dədə Qorqud. Bakı, 1988, 265 s.
9. Qasımova S.Ə. Orta əsrlərdə Gəncədə parça ipək toxuculuğu. “Gəncə tarixinin aktual problemləri” mövzusunda respublika elmi-nəzəri konfransın materialları. Gəncə “Elm” nəşriyyatı, 2024-cü il. 121 s.
10. https://medeniyyet.az/page/news/65688/Azerbaycan-bedii-tikmelerine-bir-nezer.html

УДК 94(479.24)

*Самира Алиага кызы Гасымова*
*Гянджинского отделения НАНА*
*АГАУ Общественных дисциплин*

## ГЯНДЖАНСКАЯ ХУДОЖЕСТВЕННАЯ ВЫШИВКА КАК НЕОТЪЕМЛЕМАЯ ЧАСТЬ АЗЕРБАЙДЖАНСКОГО ДЕКОРАТИВНО-ПРИКЛАДНОГО ИСКУССТВА

*РЕЗЮМЕ*

*Ключевые слова*: Гянджа, Азербайджан, декоративно-прикладное искусство, художественная вышивка, узоры, национально-культурные ценности

Гянджа, один из древних центров ремесел и культуры Азербайджана, на протяжении веков отличалась богатыми традициями декоративно-прикладного искусства. Среди народных искусств, развитых в этом древнем городе, особое место занимала художественная вышивка, отличавшаяся элегантностью, утонченностью и высокими эстетическими качествами. Гянджанская вышивка была не только средством украшения предметов домашнего обихода, но и важным образцом искусства, отражающим национальное мировоззрение, художественный вкус и этнокультурные особенности населения города. Девушки и женщины города создавали различные виды изящных вышивальных узоров и украшали предметы домашнего обихода, такие как занавески, покрывала, скатерти, седла и т. д., используя самый распространенный вид народного искусства – вышивку. Этот вид искусства, передававшийся из поколения в

поколение на протяжении веков, до сих пор сохраняется мастерами, которые продолжают беречь древние традиции вышивки и вносят свой вклад в развитие национального декоративно-прикладного искусства.

UDC 94(479.24)

*Samira Aliaga Gasimova*
*Ganja Branch of ANAS*
*ASAU, Department of Social Sciences*

GANJA ARTISTIC EMBROIDERY AS AN INTEGRAL PART OF AZERBAIJANI DECORATIVE APPLIED ART

*SUMMARY*

*Keywords:* Ganja, Azerbaijan, decorative applied art, artistic embroidery, patterns, national-cultural values

Ganja, one of the ancient centers of crafts and culture of Azerbaijan, has been distinguished for centuries by its rich traditions of decorative and applied arts. Among the folk arts developed in this ancient city, artistic embroidery occupied a special place, distinguished by its elegance, subtlety and high aesthetic characteristics. Ganja embroidery was not only a means of decorating household items, but also formed as important examples of art reflecting the national worldview, artistic taste and ethnic-cultural characteristics of the city's population. Girls and women in the city created various types of delicate embroidery patterns, and decorated household items such as curtains, covers, tablecloths, saddles, etc. using the most common type of folk art, which is considered to be embroidery. This type of art, which has been passed down from generation to generation for centuries, is still preserved by craftsmen, who continue to preserve ancient embroidery traditions and contribute to the development of national decorative and applied arts.

***Daxil oldu: 24.06.2026-cı il***